# Biz tarixin ən şərəfli anlarını yaşayırıq!

## Azərbaycan savaşın bütün yönlərində Ermənistanı məğlub edir

***Son illərdə dünyanın "saqqallı münaqişələr"i sırasında yer almış Etmənistan–Azərbaycan, Dağlıq Qarabağ qarşıdurması yenidən qanlı döyüşlər mərhələsinə qədəm qoymaqla öz ədalətli həllinin həddindən artıq uzadılması həqiqətini bütün dünyaya anladır. Tərəflərdən hansının ədalətli – hasının haqsız, hansının güclü – hansının gücsüz olduğu bütün aydınlığı ilə bir daha aşkarlanır. İkinci həftədir ki, davam edən qanlı savaş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqəti, ilk növbədə, tərəflərin özləri bütün acılığı və şirinliyi, ağırlığı və gücçatanlığı ilə yaşayır. Hər iki ölkənin dostları və bədxahları da baş verənləri nəfəs dərmədən izləyir, öz sevinc və təlaşlarını anındaca ifadə edirlər.***



Ermənistanın son iki ildə yeni müharibə, ərazi itkiləri ilə bağlı Azərbaycana qarşı davamlı təhdidləri, nəhayət, bu ilin İyul hərbi təxribatından sonra sentyabrın 27-də səhər tezdən irimiqyaslı hücum əməliyyatı ilə yenidən davam etdirildi. Düşmənin bütün təhdid və təxribatlarını buvaxtadək siyasi təmkin və bəşəri məsuliyyət, zəruri hazırlıqla qarşılayan Azərbaycan bu təcavüzü yerində və anındaca möhtəşəm bir əks-həmlə ilə dəf etdi. Elə həmin gün Qarabağ cəbhəsində döyüşlərin başlanması ilə bağlı Azərbaycan xalqına müraciətində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev yaranmış vəziyyət barədə məlumat verərək, onun səbəb və nəticələrini dərindən təhlil etdi, əslində, düşmənin özünü məğlubiyyətə məhkum etdiyini inamla bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdı. Ermənistan bu təxribatları törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planında idi və bunu gizlətmirdilər. İşğalçı ölkənin hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni



işğalla hədələyirdi. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Bu təxribatçı siyasətin digər səbəbi Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaq idi.

Azərbaycan rəhbərinin dediyi kimi, Ermənistan hər vəchlə çalışırdı ki, danışıqlar prosesi pozulsun və buna nail oldu. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdürdü: "Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda, Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?!"

Dövlət başçımız əlavə etdi ki, bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

Prezident İlham Əliyev son günlərdəki xalqa müraciətlərində, ayrı-ayrı ölkələrin rəhbərləri ilə telefon danışıqlarında , sosial şəbəkə ilə açıqlamalarında və xarici mediaya müsahibələrində bütün bu həqiqətləri dönə-dönə vurğulamaqla yanaşı, göstərir ki, Ermənistan davamlı olaraq işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparırdı. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi: "Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır". Həm də Ermənistan bu qanunsuzluğu ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisinin azaldığı bir durumda edir. İndi Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan ehtiyatı yoxdur ki, ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər.

Dövlətimizin başçısı bütün dünyaya bəyan edir ki, bütün bunların müqabilində Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz siyasətini beynəlxalq normaya uyğun, vicdanla aparır: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Ali Baş Komandanın dediyi kimi, artıq bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul edilmiş 4 qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Günün baş həqiqəti budur ki, münaqişənin şəksiz ədalətli tərəfi olan Azərbaycan haqlı olduğu qədər də güclüdür, qalib gəlməyə həm siyasi, həm də hərbi baxımdan tamamilə layiqdir. Qüdrətli Azərbaycan Ordusu bunu 10 gündür ki, layiqincə gerçəkləşdirir. Azərbaycan hərbi-siyasi qarşıdurmanın 4 əsas istiqamətində-- cəbhədə, arxada, savaşın informasiya təminatında və haqq işinin qardaş Türkiyə başda olmaqla beynəlxalq aləmdə dəstəklənməsində əldə etdiyi irəliləyişlə işğalçı Ermənistanı geri sıxışdırır, onun məğlubiyyətini dərinləşdirir.

Oyuncaq Ermənistan dövlətini Azərbaycana təzyiq niyyəti ilə ölkəmizin üstünə qaldırıb, şirnikləndirib, hərtərəfli himayə edib, ərazilərimizin beşdə birinin işğalı ilə mükafatlandıran, ötən dövrdə Qarabağ itkisini Azərbaycana unutdurmağa çalışan imperialist dairələr isə baş verənlərdən dərin məyusluq, ciddi təşviş keçirirlər. Onlar, nəyin bahasına olursa-olsun, Azərbaycanın zəfər yürüşünü dayandırmaq, Ermənistanı düşdüyü fəlakət və qəti məğlubiyyətdən xilas etmək istəyirlər.

Belə bir şəraitdə haqlı suallar ortaya çıxır: atəşi dayandırıb dialoqa çağıranlar deyə bilərlərmi ki, vəziyyətdən çıxış yolu kimi irəli sürdükləri "atəşkəs və dialoq" siyasi vasitə kimi niyə ötən 26 ildə iynə ucu boyda da təsirli olmayıb? Niyə ATƏT-in Minsk qrupuna vasitəçilik mandatı vermiş BMT Təhlükəsizlik Şurasının Ermənistanın öz qoşunlarını Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarmasına dair 4 qərarı 27 ildir ki, yerinə yetirilməmiş qalır?

Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin qısamüddətli ordu quruculuğundan sonra Azərbaycanın apardığı 1994-cü ilin qış-yaz əməliyyatları zamanı Ermənistanın işğalının qarşısı alınanda, Arazboyu 22 yaşayış məntəqəsi bir həmlə ilə azad ediləndə beynəlxalq qurumlar və ilk növbədə, Ermənistanın havadarları Azərbaycanı inadla dayandırıb, atəşkəsə nail oldular. Atəşkəs Azərbaycanda siyasi sabitliyin möhkəmlənməsi, iqtisadi inkişaf və müasir hərbi quruculuq baxımından önəmli olsa da, danışıqların 27 il uzanması ilə səmərə vermədi. Sonrakı dövrdə "sülh prosesi" ermənilərin şıltaqlıqlarının, oyunbazlıqlarının baş alıb getməsi ilə dalana dirəndi. Ermənistan rəhbərliyi bu perspektivsizliyin məsuliyyətini anlamadan Azərbaycanı Qarabağdan əl çəkmək üçün yeni ərazi itkiləri ilə hədələməkdə davam etdi.

Nəhayət, 4 il əvvəl Aprel döyüşlərində Azərbaycan Ermənistanın yeni hücum təxribatını qətiyyətlə cavablandırıb qat-qat artıq güc ortaya qoyanda, ərazilərimizi işğaldan azad etməyə başlayanda dünyanın səlahiyyət və güc sahibləri yenidən "atəşkəs-dialoq" oyununu işə saldılar. Artıq bu oyun açıq-aydın Ermənistanın himayə edilməsi anlamına gəlir. Bəs deyilmi? Bütün bunları son illərdə və aylarda Azərbaycan Prezidenti İlham Əliyev müxtəlif beynəlxalq səviyyələrdə dünya birliyinə, erməni himayədarlarına və vasitəçilərə çatdırsa da, işğalçı dövləti indiki təxribatdan çəkindirən olmadı.

Gəlin indiki savaş başlayana qədər baş verən təxribatlara və ölkəmizin bu hədyana təmkinli, dözümlü, ayıq-sayıq yanaşmasının xronikasına nəzər salaq. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində qurumun 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda və sessiyanın ümumi debatlarında çıxışlarında ölkəmizlə bağlı ən önəmli həqiqətləri yığcam və aydın şəkildə beynəlxalq auditoriyaya çatdırdı, dünyanın ən yüksək tribunasından Ermənistanın işğalçılıq siyasətini kəskin ittiham etdi.

Prezident İlham Əliyev 30 ildən artıq bir müddətdə əsassız olaraq davam edən bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması üçün ölkəmizin həm siyasi-iqtisadi, həm də hərbi qüdrətinin olduqca böyük olduğunu bəyan etdi. Ölkəmizin rəhbəri Ermənistana, həm də onun havadarlarına mesaj verdi ki, Azərbaycan dövləti bundan sonra da qətiyyətli mövqeyindən geri çəkilməyəcək, beynəlxalq hüququn verdiyi bütün imkanlardan istifadə edərək xalqımızı qoruyacaq, ərazi bütövlüyümüzü təmin edəcək.

Prezident İlham Əliyev onu da bildirdi ki, son aylarda yeni torpaq işğalı üçün hərbi-siyasi hazırlıq içərisində olan Ermənistanda ölkəmizə münasibət nifrət üzərində qurulmuşdur. Nasizmə və faşizmə söykənən bu təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Sonda Azərbaycan rəhbəri dünya birliyini Ermənistanın işğalçılıq siyasətini dayandırmağa çağırdı.

Hazırda nüfuzlu Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan rəhbəri bu qurumun tribunasından da dünya siyasətçi və diplomatlarına qətiyyətlə anlatdı ki, müasir beynəlxalq hüquqda bir sıra xüsusi əhəmiyyətli normalar mövcuddur ki, onlarsız dünya sisteminin normal fəaliyyət göstərməsi praktik cəhətdən mümkün deyil. Həmin normalar beynəlxalq hüququn əsas prinsipləridir. Beynəlxalq hüququn bir sıra əsas prinsipləri BMT Nizamnaməsinin 2-ci maddəsində BMT-nin bütün üzvləri üçün məcburi normalar kimi göstərilmişdir. Dövlətlərin məsuliyyəti də beynəlxalq hüququn əsas prinsipidir.

Bütün bunlardan göründüyü kimi, Azərbaycanın dövlət başçısının savaşaqədərki dövrdə dünya birliyinə ünvanladığı çıxış və bəyanatlarının ümumi ruhu beynəlxalq aləmə bir daha anlatdı ki, indiki mürəkkəb şəraitdə hüququn aliliyi və onun tətbiqi ən aktual məsələ sayılsa da, bəzi dövlətlər bu normalara məhəl qoymadan beynəlxalq təşkilatların, o cümlədən BMT-nin qərar və qətnamələrinə əhəmiyyət vermədən işğalçılıq, separatist, terrorçu siyasətini açıq-aşkar aparırlar.

Ermənistanın təcavüzkar siyasətinin gətirib çıxardığı qanlı savaş bir daha sübut edir ki, bu işğalçı ölkə Cənubi Qafqazda sabitliyi pozan başlıca amildir. Onlar nifrət, kin, işğalçı düşüncəsi və əməli ilə bölgədə sülhün, sabitliyin, əməkdaşlığın yaranmasına mane olur. Azərbaycan əks-hücumu ilə Ermənistanın havadarlarını bu adi həqiqəti qəbul etmək üçün düşünməyə məcbur edib: İşğalçını, terrorçunu və bəşəri cinayəti törədəni, sabitliyə və əməkdaşlığa mane olan işğalçı dövləti müdafiə etməkdən əl çəkin.

Bax beləcə hər gün Ermənistan cəbhədə ağır itkilərə məruz qalır. Ümumi hesabda düşmənin 230-dək tank və digər zirehli texnikası, 250 artilleriya, yaylım atəşli raket sistemi, minaatanı, 1 ədəd "S-300" zenit-raket kompleksi, 38 hava hücumundan müdafiə vasitələri, 130-dan artıq avtomobili, 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 7 silah-sursat anbarı, 17 "Osa" zenit-raket sistemi sərrast atəşlərlə məhv edilib, 25 PUA-sı endirilib. Təxmini məlumatlara görə, ölən və yaralıların sayı 2300-ü keçib. Qarşı tərəfdə yaranan panika hər gün güclənir, fərarilik artır. Dağlıq Qarabağın yaşayış məntəqələrindən Ermənistana köç davam edir.

Ermənistanın silahlı qüvvələrinin əsas logistik, hərbi-sursat anbarlarına son günlərdə ciddi zərbələr vurulub. Bu, Ermənistan silahlı qüvvələrinin müqavimətini əsaslı şəkildə sarsıdır. Bu zərbələr Ermənistan silahlı qüvvələrinin cəbhədəki bölmələrinin müqavimətini önəmli dərəcədə azaldıb. Otuz il ərzində Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş hərbi istehkam sistemlərinin, maddi-texniki bazasının qısa müddətdə sıradan çıxarılması düşmənin döyüş müqavimətinin qırılması deməkdir.

Çıxılmaz vəziyyətə düşən Ermənistan tərəfi ordumuzun sarsıdıcı zərbələrini və irəliləyişini dayandırmaq üçün Azərbaycanın cəbhə bölgəsindəki yaşayış məntəqələrini davamlı artilleriya atəşinə tutaraq dinc əhaliyə və mülki obyektlərə ciddi təlafat verir. Azərbaycan Baş Prokurorluğunun mətbuat xidmətindən KİV-ə verilən məlumata görə, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində oktyabrın 5-dək 25 soydaşımız həlak olub, 121 nəfər yaralanıb, 56 mülki obyekt və 306 fərdi ev dağıdılıb. Qeyd edək ki, Ermənistan tərəfinin iddialarına baxmayaraq ordumuz dinc ermənilərin yaşadığı ərazilərə zərbə endirməyib, dinc sakini hədəfə almayıb.

Azərbaycan Ordusu bölmələrinin hücumlarının təzyiqləri altında son günlərdə Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir. Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşirlər. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhə hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər.

Hazırda cəbhə boyunca aldığı zərbələrdən quduzlaşmış erməni silahlı qüvvələri hərbi təxribatları, dinc əhaliyə qarşı iriçaplı silahlardan basqınları davam etdirirlər. Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin, strateji Mingəçevir şəhərinin və digər cəbhədən çox uzaqda olan şəhər və rayonların raket atəşi ilə vurulması düşmənin bu hərbi cinayəti törətməkdən çəkinməyərək Azərbaycanın hücumu dayandırması üçün göstərilən cəhddir.

Bu vandallıq Azərbaycanın dinc əhalisini qorxutmur, xalqın iradəsini sarsıtmır. Əvəzində Azərbaycan Ordusunun hərbçiləri düşmənə sarsıdıcı zərbələr vurur, onların atəş nöqtələrini susdururlar. Bütün istiqmətlərdə düşmən canlı qüvvə və texnika sarıdan yeni itkilər verir, mövqelərindən geri çəkilir. Azərbaycan Ordusu şanlı tariximizə yeni qəhrəmanlıq salnaməsi yazır.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***